Azərbaycan müstəqilliyinin ilk illərində ağır dövr yaşayırdı. Çox çətinliklə əldə edilmiş dövlət müstəqilliyinin itirilməsi təhlükəsi də daxil olmaqla, siyasi, hərbi böhran, vətəndaş müharibəsi, torpaqlarımızın işğal altına düşməsi, iqtisadi tənəzzül və digər sferalarda özünü göstərən problemləri dəf etmək və dövlətimizi yeni inkişaf yoluna çıxarmaq ulu öndər Heydər Əliyevin uzaqgörənliyi sayəsində mümkün olmuşdur. Ölkəmizin taleyini müəyyən edən ümummilli lider müstəqilliyin ilk illərində hakimiyyətdə olmuş qüvvələrin Azərbaycanı üz-üzə qoyduğu böyük təhlükələr, çətinliklər, o cümlədən sosial-iqtisadi problemlər məngənəsindən xilas etmiş, dövlətçiliyimizi ağır və sərt sınaqlardan çıxararaq müstəqilliyimizin özülünü möhkəmləndirmişdir.



# Azərbaycanın müdafiə sənayesi ən müasir və modern standartlara tam cavab verir

Ulu öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı Azərbaycan Respublikası Prezidenti İlham Əliyev həyata keçirdiyi uğurlu daxili və xarici siyasət nəticəsində ölkə iqtisadiyyatının sürətli inkişafı ilə yanaşı, müstəqil respublikamızın beynəlxalq aləmdə nüfuzunun artmasına da nail olmuşdur. Bu bir həqiqətdir ki, bir neçə il bundan öncə başlayan və bu gün də bütün dünyada hökm sürən maliyyə, iqtisadi böhran Azərbaycan iqtisadiyyatının inkişafına təsir edə bilmədi. Dövlət başçısının yürütdüyü düşünülmüş və məqsədyönlü siyasət nəticəsində Azərbaycan iqtisadiyyatı bu böhrana qarşı dözümlülüyünü qoruyur və artan sürətlə inkişaf edir.

Son illərdə Azərbaycan iqtisadiyyatının bütün sahələrində olduğu kimi, sənayenin inkişafında da böyük uğurlar qazanılmış, sənaye məhsulları istehsalının həcmi bir neçə dəfə artmışdır. Bu müddət ərzində rəqabətqabiliyyətli müasir sənaye sahələrinin yaradılması, sənayenin infrastruktur təminatının yaxşılaşdırılması sahəsində çoxsaylı layihələr icra edilmiş, yeni iş yerləri açılmış, ölkə sənayesi yeni inkişaf mərhələsinə qədəm qoymuşdur.

Hazırkı mərhələdə müasir çağırışlar və yeni təşəbbüslər nəzərə alınmaqla sənayenin modernləşdirilməsi və qeyri-neft sənayesinin inkişafı məqsədi ilə bir sıra tədbirlərin həyata keçirilməsi, o cümlədən ənənəvi sənaye sahələri ilə yanaşı, yeni istehsal sahələrinin yaradılması, regionlarda sənaye potensialının gücləndirilməsi, sənayenin inkişafını təmin edəcək imkanların formalaşdırılması zəruridir. Prezidentin 26 dekabr 2014-cü il tarixli sərəncamı ilə “Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı”nın təsdiq edilməsi ölkəmizdə sənayenin digər sahələri ilə yanaşı, müdafiə sənayesinin də sürətli inkişafına təkan verəcəkdir.

Bu gün yaradılmasının 10 illiyini qeyd etdiyimiz Müdafiə Sənayesi Nazirliyinin (MSN) müəssisələrində istehsal olunan hərbi təyinatlı məhsulların çeşidi artırılmış, Azərbaycan Silahlı Qüvvələrinin müasir silah növləri ilə təmin edilməsi üçün zəruri addımlar atılmışdır. 2006-2015-ci illərdə müdafiə təyinatlı məmulatların yaradılması və istehsalının mənimsənilməsi məqsədilə aparılan tikinti və yenidənqurma işləri nəticəsində nazirliyin müəssisələrində 50-dən çox yeni istehsal sahəsi yaradılmışdır. Qeyd olunan istehsal sahələrinin əksəriyyətinin açılışında respublika Prezidenti, Ali Baş Komandan İlham Əliyev iştirak etmiş və hərbi sənaye kompleksinin inkişafı ilə bağlı müvafiq tapşırıq və tövsiyələrini vermişdir. Bu illərdə 25 texnoloji xət və avadanlıq dəsti, yaradılmış istehsal sahələrinin avadanlıq parkının dəstləşdirmək məqsədilə 150-si proqram təminatlı olmaqla 1750-dən çox müxtəlif təyinatlı dəzgah, cihaz, alət və tərtibat alınıb quraşdırılmışdır.

Ölkə başçısı İlham Əliyevin sahəyə göstərdiyi xüsusi diqqət və qayğı nəticəsində qısa müddət ərzində Müdafiə Sənayesi Nazirliyinin müəssisələrində müasir növ atıcı silahlar, döyüş sursatları, mühəndis texniki vasitələri və s. müdafiə təyinatlı məmulatlar istehsal edilərək Silahlı Qüvvələrə təhvil verilmişdir. Qeyd etmək lazımdır ki, ötən müddətdə məmulatların yaradılması istiqamətində aparılan məqsədyönlü işlər nəticəsində yüzlərlə məhsulun mənimsənilməsinə və silahlanmaya qəbul edilməsinə nail olunmuşdur.

Bu işlər ardıcıl olaraq cari ildə də davam etdirilmişdir. Belə ki, 2015-ci ilin istehsal proqramına uyğun olaraq nazirliyin müəssisələrində yaradılma üzrə nəzərdə tutulan 81 mövzunu və 143 mərhələni əhatə edən təcrübi-konstruktor işləri uğurla davam etdirilir. Hal-hazıradək 11 məmulat üzrə işlər tam başa çatdırılmışdır. Gecəgörmə cihazının, kompaslı prizmatik binoklların, mina üçün atəş yığımının, qumbaraatan üçün atəş yığımlarının, müxtəlif tipli mina partladıcılarının yaradılması işləri başa çatdırılmış və seriyalı istehsalı təmin edilmişdir. NATO standartlarına uyğun xüsusi təyinatlı “Yalquzaq” snayper tüfənginin, avtomatik topun, xüsusi təyinatlı hücum pulemyotunun və s. məmulatların təcrübi-konstruktor işləri davam etdirilir.

Nazirliyin fəaliyyəti dövründə 1000 addan çox müdafiə təyinatlı məmulatın və onların ehtiyat hissələrinin istehsalı mənimsənilmişdir. Bunlardan universal və tank pulemyotlarını, tank əleyhinə əl qumbaraatanını, müxtəlif mm-lik minaatanları və onlar üçün minalı atəş yığımlarını, pilotsuz uçuş aparatlarını, mina təsirinə dayanıqlı zirehli texnikaları, BTR və BRDM tipli zirehli texnikaların təkmilləşdirilməsini və s. göstərmək olar. Ümumilikdə sifarişçilərə təhvil verilmiş müdafiə təyinatlı məmulatların həcmi 2006-cı ilə nisbətən 2015-ci ilin ilkin yekunlarına görə 210 dəfədən çox artmışdır. Ümumi məhsul istehsalının tərkibində müdafiə və xüsusi təyinatlı məmulatların həcminin xüsusi çəkisi 2006-cı illə müqayisədə 47 faiz artaraq 86 faiz təşkil etmişdir.

Hal-hazırda alınmış və quraşdırılmış texnoloji xətlərdə müxtəlif tipli izburaxan gülləli patronların, müxtəlif mm-lik müxtəlif növ döyüş sursatları üçün partladıcıların, 6 növ kiçik və iri kalibrli lülələrin, 6 növ artilleriya və tank topları üçün mərmilərin, avtomatik topun istehsalının mənimsənilməsi işləri aparılır.

Utilizasiya mərkəzində quraşdırılmış xüsusi avadanlıq və cihazlar vasitəsilə istifadəyə yararsız bütün növ döyüş sursatlarının utilizasiyası həyata keçirilir. Ötən müddətdə 18 min 200 ədəd müdafiə təyinatlı məmulatların təmiri işləri aparılmış, 7 milyon 188 min ədəd məmulatın isə utilizasiya işləri yerinə yetirilmişdir.

Nazirliyin fəaliyyəti dövründə tabeli müəssisələrdə 450 addan çox mülki və ikili təyinatlı məhsulların istehsalı mənimsənilmiş, mülki məhsulların yeni növlərinin yaradılması və istehsalı istiqamətində məqsədyönlü işlər davam etdirilmişdir. Görülmüş tədbirlər nəticəsində mülki məhsulların istehsal həcmi ildən-ilə artmaqdadır. Belə ki, 2006-cı illə müqayisədə 2015-ci ildə istehsal olunmuş mülki məhsulların həcmi 2,9 dəfə artmışdır. Cari ildə proqnoz tapşırığa 102,5 faiz əməl olunmuşdur. İstehsalı mənimsənilmiş mülki məhsullardan - əleyhqazı, 12 kalibrli ov tüfənglərini və onların patronlarını, müxtəlif tutumlu akkumulyator batareyalarını, müxtəlif tutumlu termosları, maskalanma torunu, DVB-T peyk dekoderini, müxtəlif laylı çap lövhələrini, plastik taraları, parket məmulatını, müxtəlif mebel dəstlərini, traktor tırtılını və s. göstərmək olar.

Onu da qeyd etmək lazımdır ki, nazirliyin müəssisələrində istehsal olunan müdafiə təyinatlı məmulatlarla yanaşı, mülki məhsullar da beynəlxalq sərgilərdə nümayiş etdirilir. Bir neçə beynəlxalq və yerli sərgilərdə bu növ məmulatlar nümayiş etdirilmiş və ziyarətçilər tərəfindən böyük maraqla qarşılanmışdır.

İstehsal olunan müdafiə təyinatlı məhsulların beynəlxalq müdafiə sənayesi sərgilərində nümayişi və xarici bazarlarda tanıdılması istiqamətində işlər uğurla davam etdirilir. Müdafiə Sənayesi Nazirliyinin müəssisələrində yaradılan və istehsal olunan müdafiə təyinatlı məmulatlar 2009-cu ildən etibarən 15 beynəlxalq sərgidə nümayiş etdirilmiş və böyük maraqla qarşılanmışdır. Sevindirici haldır ki, Müdafiə Sənayesi Nazirliyinin qatıldığı sərgilərdə Azərbaycan brendi kimi nümayiş etdirilən məmulatların çeşidlərinin sayı artmaqda davam edir.

Nazirliyin təmsil olunduğu digər beynəlxalq sərgilərdə olduğu kimi, cari ilin may ayında Türkiyədə keçirilən “İDEF-2015” sərgisində də nümayiş etdirdiyi məmulatlar böyük maraqla qarşılanmışdır. İki ildən bir keçirilən “İDEF” sərgisində Müdafiə Sənayesi Nazirliyi artıq dördüncü dəfə idi ki, iştirak edirdi. İlk qatıldığı “İDEF-2009” beynəlxalq sərgisində 27 adda müdafiə təyinatlı məmulatla təmsil olunan Müdafiə Sənayesi Nazirliyi “İDEF-2015”də 184 adda məmulat nümayiş etdirdi. Beynəlxalq sərgidə nümayiş olunan məmulatlar Müdafiə Sənayesi Nazirliyinin stendini ziyarət edən nümayəndə heyətləri tərəfindən böyük maraqla izlənildi. Sərgidə müxtəlif növ atıcı və yaxın məsafəli döyüş vasitələri, artilleriya silahları, zirehli texnikalar, müxtəlif çaplı aviasiya bombaları, pilotsuz uçuş aparatları, atıcı silahlar üçün müxtəlif növ döyüş sursatları, kiçik çaplı avtomatik tapançalar üçün döyüş sursatları, optik cihazlar və digər məmulatlar nümayiş etdirildi. “İDEF-2015” sərgisi çərçivəsində bir sıra ölkələrin qabaqcıl şirkətlərini təmsil edən nümayəndə heyətlərinin rəhbərləri ilə görüşlər keçirildi, hərbi-texniki əməkdaşlığın müxtəlif istiqamətləri üzrə danışıqlar aparıldı və bir sıra yeni layihələrin reallaşdırılması məsələləri müzakirə olundu.

Müdafiə Sənayesi Nazirliyində 2016-cı ildə Bakıda keçiriləcək “ADEX-2016” ikinci Beynəlxalq Müdafiə Sərgisi ilə bağlı hazırlıq işləri də davam etdirilir. Artıq 100-dən çox beynəlxalq şirkət sərgidə iştirak üçün qeydiyyatdan keçib.

Müdafiə Sənayesi Nazirliyinin müəssisələrində istehsal olunan müdafiə təyinatlı məmulatların beynəlxalq sərgilərə çıxarılması ölkənin müdafiə qüdrətinin inkişafının və Azərbaycan Silahlı Qüvvələrinin regionda qüdrətli ordulardan birinə çevrilməsinin bariz nümunəsidir. Xüsusi olaraq vurğulamaq lazımdır ki, Müdafiə Sənayesi Nazirliyi tərəfindən istehsal olunan müdafiə təyinatlı məmulatlar Azərbaycan Silahlı Qüvvələrini təmin etməklə yanaşı, artıq xarici ölkələrə də ixrac olunur.

Ötən müddət ərzində Müdafiə Sənayesi Nazirliyində hərbi-texniki əməkdaşlıq çərçivəsində bir sıra ölkələrin qabaqcıl şirkətlərini təmsil edən nümayəndə heyətlərinin rəhbərləri ilə görüşlər keçirilib, mövcud əməkdaşlıqların genişləndirilməsi və yeni əməkdaşlıqların yaradılmasına dair danışıqlar aparılıb. Bu gün nazirlik hərbi sənayenin müxtəlif istiqamətləri üzrə dünyanın aparıcı şirkət və firmaları ilə sıx əməkdaşlıq edir. Beynəlxalq sərgilərdə nümayiş etdirilən məmulatlara artan maraq sayəsində Müdafiə Sənayesi Nazirliyi ilə əməkdaşlıq edən qurumların sayı artmaqda davam edir.

Ötən illərdə olduğu kimi, bu il də müdafiə sənayesi sahəsində İstehsal Proqramının formalaşdırılması, habelə müxtəlif növ atıcı silahların, döyüş sursatlarının və zirehli texnikaların istehsalı, modernləşdirilməsi ilə bağlı respublikanın güc qurumlarının rəhbərləri ilə mütəmadi olaraq görüşlər keçirilmiş və bu da nəticədə öz müsbət təsirini göstərmişdir.

Hazırda Müdafiə Sənayesi Nazirliyinin qarşısında duran əsas prioritet məsələlərdən biri də sahənin ixtisaslı kadrlarla təmin edilməsidir. Nazirliyin tabeli müəssisələrində yaradılmış müxtəlif profilli, xüsusiləşdirilmiş istehsal sahələrində quraşdırılmış müasir tipli avadanlıq, cihaz və mütərəqqi texnologiyalarla işləməyi bacaran yüksək ixtisaslı mütəxəssislərə yaranan ehtiyac nəzərə alınaraq 2011-ci ildə Müdafiə Sənayesi Nazirliyinin sifarişi əsasında Azərbaycan Texniki Universitetində Xüsusi texnika və texnologiya fakültəsi yaradıldı. Qeyd olunan fakültədə 5 müdafiə təyinatlı ixtisas üzrə təhsil alan 370 tələbənin praktiki məşğələlərinin keçirilməsi üçün nazirliyin müəssisələrində hərtərəfli şərait yaradılıb.

Müdafiə təyinatlı məmulatların yaradılması sahəsində nazirliyin elmi müəssisələrinin potensialından istifadə etməklə bir sıra elmi-tədqiqat və təcrübi-konstruktor işləri uğurla həyata keçirilir. Bu sahədə respublikanın elm ocaqlarından Azərbaycan Milli Elmlər Akademiyası (AMEA), Milli Aviasiya Akademiyası (MAA) və digərləri ilə sıx əməkdaşlıq edilir. Nazirliyin Elmi-Tədqiqat İnstitutu (ETİ) və Milli Aerokosmik Agentliyi (MAKA) tərəfindən ötən müddət ərzində yeni növ müdafiə təyinatlı məmulatların yaradılması istiqamətində məqsədyönlü işlər aparılmışdır. Belə ki, Dövlət Müdafiə Sifarişi Proqramı xətti ilə ETİ-də 17 mövzu, MAKA-da isə 12 mövzu üzrə elmi-tədqiqat və təcrübi-konstruktor işləri yerinə yetirilmişdir. 2007-2015-ci illər ərzində sözügedən qurumlar üzrə elmi-nəzəri biliklərin istehsalata tətbiqi ilə bağlı yüzlərlə elmi-tədqiqat işləri yerinə yetirilmiş və müsbət nəticələr əldə edilmişdir. 2007-ci ildən nazirlikdə fəaliyyət göstərən Elmi-Texniki Şurada 7 mövzu, şuranın müvafiq bölmələrində isə 80 mövzu üzrə müzakirələr aparılmış və onlardan bir qisminin istehsalata tətbiq olunması barədə müvafiq qərarlar qəbul edilmişdir.

Qısa müddət ərzində müdafiə sənayesinin inkişafında əldə olunmuş bu uğurlar respublika Prezidenti İlham Əliyevin ölkənin sənaye infrastrukturunun yenidən qurulması istiqamətində həyata keçirdiyi kompleks tədbirlərin nəticəsidir. Respublika Prezidenti İlham Əliyevin ötən ay Azərbaycan Milli Elmlər Akademiyasının 70 illik yubileyinə həsr olunmuş ümumi yığıncaqda Müdafiə Sənayesi Nazirliyinin yaradılması və qısa müddət ərzində əldə etdiyi uğularlarla bağlı söylədiyi yüksək fikirlər nazirliyin kollektivi arasında böyük ruh yüksəkliyi yaratmaqla yanaşı, üzərlərinə götürdükləri peşə məsuliyyətlərini də artırdı. Ölkə başçısının da vurğuladığı kimi, bu gün Azərbaycan Ordusunun müdafiə təyinatlı məmulatlara olan tələbatının əsas hissəsini daxili istehsal sayəsində təmin etmək mümkündür.

Onu da qeyd etmək lazımdır ki, son zamanlar Ermənistanla təmas xəttində tam üstünlüyü əldə edən və düşmənə sarsıdıcı zərbələr vuran Azərbaycan Ordusunun təminatını daha da gücləndirmək məqsədilə nazirliyin müəssisələrində silah, sursat və hərbi vasitələrin istehsalının genişləndirilməsi və keyfiyyətinin daha da yaxşılaşdırılması istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir. Müdafiə Sənayesi Nazirliyinin kollektivi respublika Prezidenti, Ali Baş Komandan İlham Əliyevi və eyni zamanda Azərbaycan xalqını əmin edir ki, doğma torpaqlarımızın düşmən tapdağından azad olunması, müstəqil respublikamızın ərazi bütövlüyünün bərpa olunması və ölkəmizin müdafiə qüdrətinin artırılması naminə üzərinə düşən bütün işlərin öhdəsindən layiqincə gələcəkdir.

Hər il olduğu kimi, bu il də Müdafiə Sənayesi Nazirliyi işçilərinin peşə bayramı ərəfəsində respublika Prezidenti tərəfindən nazirliyin bir qrup əməkdaşına, onların fəaliyyətlərini qiymətləndirərək fəxri adların, yüksək dövlət təltiflərinin verilməsi kollektivin hər bir üzvündə dərin minnətdarlıq və sonsuz ehtiram hissləri doğurur. Hər zaman ölkə rəhbərliyinin diqqət və qayğısını hiss edən Müdafiə Sənayesi Nazirliyinin kollektivi bundan sonra da doğma Azərbaycanın işıqlı gələcəyinin təminatçısı olan respublika Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Silahlı Qüvvələri yeni növ silah, hərbi texnika və döyüş sursatları ilə təmin etməsi üçün bütün qüvvəsini səfərbər edəcəkdir.

**Yavər CAMALOV,**
***müdafiə sənayesi naziri***